Kredo .- 2022.- 12 yanvar.- S.1.

# Poliqrafiyamızın tarixindən: Görkəmli simalar Şəddat Cəfərov - ömrün payız çiçəkləri



Mənəvi mühitimizin böyük ziyalıları, ömrünü, taleyini vətənin mənəvi yüksəlişinə həsr etmiş insanlar var.

Yaşayan, yaradan insanlar var. Ömrün baharını da keçir, qızmar yayından da ötür, payızına gəlir, amma yenə qəlbi yaradıcılıq eşqi ilə döyünür.

Şəddat Cəfərov ədəbi və əməli fəaliyyəti ilə yenə öz tövründədir. Sanki zamanının baharını təzədən yaşayır. Elmi axtarışlarında da, ədəbi-publisistik yazılarında da və ən başlıcası, böyük zəhmət və intellekt tələb edən poliqrafiya sahəsində də yorulmazlıq gücünü göstərə bilir.

80-i keçib. Hələ bir-iki il də üzü yuxarıya doğru irəliləməkdədir. Şəddat Cəfərov kimi həyat obrazlarının timsalında payızı elə insan obrazı ilə birgə görmək mümkündür. Sanki bu tipli insanların coşqun həyat sevgisi təlqin edir ki, payızı qüssəkədər fəsli kimi yaşamayaq. Payız həyatımızın gözəlliklərini üzə çıxaran qeyri-adi bir zaman dönəmidir.

Payız... ilin gözəlliyin, rənglərinin əlvanlığını göstərən fəsil.

Payız... ilin necə keçdiyini, hansı çalarlarda göründüyünü göstərən xülasə kimi gözlərimizin önündə bizi, bəlkə də, bütün il boyu görmədiyimiz cazibədarlığı ilə çəkən mənzərələr müəllifi. Mən elə payızı bir rəssam kimi təsəvvür edirəm. Və bu rəssamın düşüncələrindən qeyri-adi rənglərə çevrilmiş fikirlərini oxumaq istəyirəm.

Mənə elə gəlir ki, payız həm də insan ömrünün ən maraqlı, ən cazibədar çağlarının obrazıdır.

Həyat... cazibədarlığı, cəzbetmə gücü ilə xüsusi bir fenomendir.

Həyat... insanı yaşamağa çağıran hiss və duyğudur.

Şəddat Cəfərovun həyat yolu... Dalğalı, ağrılı-acılı və, əlbəttə, həm də şirinli, fərəh doğuran məqamları ilə zəngin olan bir yoldur.

Şəxsiyyətlərin yolu həmişə işıqlı olur. Bu işığın mahiyyəti özündən sonra gələn nəsilləri daha uğurlu yola sarı dəvət edir.

Şəddat Cəfərovun bu günü... sözün həqiqi mənasında yazı günüdür, yaradıcılıq günüdür. Qaynar, zəhmətdən bezməyən, usanmayan insanın əməli fəaliyyət günüdür.

Bizim “Kredo”nun hər sayında onun mədəniyyətimiz üçün dəyərli olan ədəbi hadisələrə - kitablara, sənət əsərlərinə, poetik örnəklərə həsr olunmuş yazıları dərc olunur. Bu yazılar göstərir ki, onun yaradıcılıq yolu əslində öz həyatından güc alır. Bütün həyatı onun üçün əsl təcrübə məktəbidir.

Bir vaxt belə deyirdilər ki, o şəxslərin qocalmağa haqqı var ki, gəncliklərində, cavanlıqlarında, bir sözlə, həyat yollarında qazandıqları həqiqətləri yeni nəsillərə danışa bilsinlər. Əlbəttə, bu həqiqətlər yeni nəsillərin mənəvi yüksəlişinə təsir göstərmək gücündədirsə.

Şəddat Cəfərovun həyat yolu yaradıcılığı ilə birgə, əməli fəaliyyəti ilə birgə... yeni nəsil üçün mənəvi dərs kitabıdır. Bu günün Şəddat Cəfərov məktəbi ilə yaxından tanış olan, bu məktəbi öyrənmək istəyində olan bir şəxs kimi bütün açıqlığı ilə deyirəm: Fəxr edirəm ki, zamanın Şəddat Cəfərov kimi simaları ilə yaxından tanışam. Onunla dostluq səviyyəsində olan doğmalıq ünsiyyətim var.

Bu bir payız doğmalığıdır. Bu payızın gətirdiyi fərəhi duymaq üçün gərək istinad ünvanını yaxşı tanıyasan.

Şəddat Cəfərovun yanvarın 14-də ad günüdür. Ad günündə dostları təbrik edərlər. Mən “Kredo” qəzetinin adından poliqrafiyamızın, mədəniyyətimizin, jurnalistikamızın, ədəbiyyatımızın görkəmli simalarından biri olan Şəddat Cəfərovu təbrik etməkdən məmnunluq duyuram.

Payız ilin ən gözəl fəslidir.

Əli Rza *11.01.2022*